**“Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davaml inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır.

Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, ölkə regionlarının, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədi ilə **qərara alıram:**

1. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq edilsin.
2. Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi hər il, müvafiq olaraq, dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görsünlər.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və Proqramın icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 yanvar 2019-cu il
500

## AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2019-2023-cü İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI

### 1. Giriş

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ölkənin regionlarının davamlı və tarazlı inkişafının təmin olunmasını, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsini və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmaq məqsədini daşıyır.

Bu strategiyanın həyata keçirilməsində, o cümlədən ölkənin regionlarının sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları (2004-2008, 2009-2013 və 2014—2018-ci illər üzrə) böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır.

Hazırda bu imkanlardan çıxış edərək ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionlarda, o cümlədən kənd yerlərində iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu və sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi inkişaf gündəliyində ön plana çıxmışdır.

Bu məsələlərin uğurlu həlli ölkənin regionlarında mövcud olan potensialdan daha səmərəli istifadə etməklə bölgələrdə, o cümlədən kənd yerlərində sosial-iqtisadi inkişafın sürətləndirilməsi və bu inkişafın davamlılığının möhkəmləndirilməsini zəruri edir. Bu isə öz növbəsində ölkənin regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar siyasət tədbirlərinin, o cümlədən kompleks proqramlar hazırlanıb icra olunmasının davam etdirilməsini nəzərdə tutur.

Qeyd olunanlar nəzərə alınaraq, ölkə regionlarının, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində əldə olunan nailiyyətləri daha da artırmaq və “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair” Strateji Yol Xəritəsinin 9.1.4-cü bəndinin icrasını təmin etmək məqsədilə “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” (bundan sonra - Dövlət Proqramı) hazırlanmışdır.

Dövlət Proqramı çərçivəsində ölkədə regionların inkişafı ilə əlaqədar tənzimlənmə sisteminin, o cümlədən qanunvericilik bazasının, institusional və iqtisadi mexanizmlərin daha da təkmilləşdirilməsi, investisiya və innovasiya fəallığının artırılması, mütərəqqi texniki avadanlıqlar və texnologiyaların tətbiqi əsasında yerli iqtisadi (təbii-iqtisadi, istehsal-texniki və elmi-texniki) potensialın gücləndirilməsi və təsərrüfat dövriyyəsinə tam cəlb olunması, buna uyğun olaraq, iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi (digər müqayisəli üstünlüyə malik, əlavə dəyər yaradan məhsul və xidmət istehsalı sahələrinin də inkişaf etdirilməsi) və səmərəliliyinin yüksəldilməsi hesabına rəqabətqabiliyyətliliyinin artırılması, sahibkarlığın inkişafı, məhsul və

xidmət istehsalı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin daha da sağlamlaşdırılması, maliyyə resurslarına və bazara çıxış imkanlarının asanlaşdırılması, istehsal, sosial və bazar infrastrukturunun modernləşdirilməsi, sosial xidmətlərin çeşidinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması və aztəminatlı insanlar üçün əlçatanlığının təmin edilməsi, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi, təbii ehtiyatlardan daha da səmərəli istifadə olunması və ekoloji təhlükəsizliyin qorunması üzərində nəzarətin möhkəmləndirilməsi və bu kimi digər istiqamətlərdə kompleks işlərin görülməsi nəzərdə tutulur.

Nəticədə, təbii resurslardan mümkün qədər tam və səmərəli istifadə olunması, təsərrüfat subyektlərinin fəaliyyətinin gücləndirilməsi, yerlərdə yeni innovasiyalara əsaslanan məhsul və xidmət istehsalı sahələrinin dəyər zəncirinin bütün həlqələri üzrə inkişaf etdirilməsi, elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi ilə yaşıl iqtisadiyyatın inkişafı üçün münbit şəraitin yaradılması, bununla da ölkədə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun da dayanıqlı inkişafının təmin olunması, qeyri-neft sektoru üzrə ixrac həcminin artımına nail olunması, regionlarda, o cümlədən kənd yerlərində yaşayan əhalinin layiqli məşğulluq və gəlir əldəetmə imkanlarının artması və onların sosial rifah halının yüksəlməsi, beləliklə də regionların davamlı və tarazlı inkişafının təmin olunması gözlənilir.

Dövlət Proqramı ölkənin aşağıda qeyd olunan regionlarını əhatə edir:

- **Bakı şəhəri və qəsəbələri;**
- **Abşeron iqtisadi rayonu** (Abşeron və Xızı rayonları, Sumqayıt şəhəri);
- **Aran iqtisadi rayonu** (Yevlax, Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab rayonları, Şirvan və Mingəçevir şəhərləri);
- **Dağlıq Şirvan iqtisadi rayonu** (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);
- **Gəncə-Qazax iqtisadi rayonu** (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə və Naftalan ᵒəhərləri);
- **Quba-Xaçmaz iqtisadi rayonu** (Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən rayonları);
- **Lənkəran iqtisadi rayonu** (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Kəngərli və Şərur rayonları);

- **Şəki-Zaqatala iqtisadi rayonu** (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);
- **Yuxarı Qarabağ iqtisadi rayonu**[1] (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları və Xankəndi şəhəri);
- **Kəlbəcər-Laçın iqtisadi rayonu** (Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları).

Dövlət Proqramının Tədbirlər Planı aşağıdakı bölmələrdən ibarətdir:

- Ölkə əhəmiyyətli tədbirlər;
- Bakı şəhəri və qəsəbələri üzrə tədbirlər;
- Ölkənin inzibati rayonları üzrə tədbirlər;
- Naxçıvan iqtisadi rayonu üzrə tədbirlər.

## 2. Ölkədə regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən siyasətin əsas nəticələri

Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın davamlılığının təmin olunmasında ölkənin regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının qəbul olunması və həyata keçirilməsinin müstəsna əhəmiyyəti vardır. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionlarda sosial-iqtisadi inkişaf potensiallarının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaratmışdır. Ötən dövr ərzində regionların inkişafı istiqamətində 3 dövlət proqramı qəbul olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının təmin edilməsi, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsindən ibarət olmuşdur. Sözügedən Dövlət Proqramının uğurlu icrası bütün regionların inkişafında yeni bir mərhələnin yaranmasına səbəb olmuş, formalaşmış əlverişli iqtisadi mühit ölkənin sosial-iqtisadi inkişafı sahəsində başlanmış tədbirlərin davam etdirilməsi zərurətini yaratmışdır.

Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanılmış tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Bu Dövlət Proqramının uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində mühüm rol oynamışdır.

Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Qeyd olunan Dövlət Proqramının əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarət olmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin bölgələrə mütəmadi səfərləri Dövlət Proqramlarının icrasını sürətləndirməklə, regionların tarazlı inkişafının təmin edilməsi, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində görülən işlərə təkan vermişdir. Proqramların icra olunduğu dövr ərzində dövlət başçısı 1800-dən çox infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirak etmiş, istehsal təyinatlı müəssisələrin fəaliyyəti ilə tanış olmuş, yerlərdə ictimaiyyətin nümayəndələri ilə, o cümlədən sahibkarlarla görüşlər keçirmiş, qaldırılan məsələlərlə yaxından maraqlanmış, eyni zamanda müxtəlif rayon və şəhərlərin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində 650-dək sərəncam imzalamışdır.

**Azərbaycan Respublikasının Prezidentinin regionlarda müxtəlif təyinatlı obyektlərin açılış və təməlqoyma mərasimlərində iştirakı**

**Azərbaycan Respublikasının Prezidentinin regionların inkişafı istiqamətində imzaladığı sərəncamlar**

Dövlət Proqramları çərçivəsində görülmüş işlər ölkədə həyata keçirilən ümumi sosial-iqtisadi inkişaf siyasətinə ciddi dəstək vermiş və nəticədə 2004-ci illərdə ümumi daxili məhsul (ÜDM) real ifadədə 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru 2,8 dəfə artmışdır. Bu dövrdə sənaye real ifadədə 2,6 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,4 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmışdır.

Strateji valyuta ehtiyatlan 2004-cü ilə nisbətən 24,3 dəfə artaraq 1 yanvar 2019-cu il tarixinə 45 milyard ABŞ dolları səviyyəsini keçmişdir.

Dövlət proqramlarının icrası dövründə xarici ticarətin coğrafiyası daha da genişlənmiş, onun əmtəə strukturu təkmilləşmişdir. Bu dövrdə Azərbaycan 190-a yaxın ölkə ilə xarici ticarət əməliyyatları aparmış, qeyri-neft ixracı 4,2 dəfə artmışdır.

Sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması Azərbaycan Respublikası Prezidentinin iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindəndir. Dövlət proqramlarının qəbulundan ötən müddət ərzində ölkədə sahibkarlığın dinamik inkişaf etdirilməsi və genişləndirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və onların hüquqlarının etibarlı müdafiə mexanizmlərinin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, ölkədə güclü özəl sektor formalaşmış, biznes və investisiya mühiti daha da yaxşılaşmış, sahibkarların sayı artaraq ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmişdir. Görülən işlərin nəticəsində artıq 2018-ci ildə özəl bölmənin payı ümumi daxili məhsulda 80 faizdən, məşğulluqda 75 faizdən çox olmuş, dövlət qeydiyyatına alınmış sahibkarlıq subyektlərinin sayı 950 mini keçmişdir. Qeydiyyatdan keçmiş sahibkarlıq subyektlərinin 66,6 faizi regionların payına düşmüşdür.

Azərbaycanın əldə etdiyi uğurlar beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da öz müsbət əksini tapmışdır. Təsadüfi deyildir ki, Dünya Bankının "Doing Business 2019" hesabatına görə, Azərbaycan əvvəlki illə müqayisədə reytinqdə 32 pillə irəliləyərək, 57-ci yerdən 25-ci pilləyə yüksəlib. Sənədə əsasən, 10 indikatordan 8-i üzrə öz mövqeyini daha da yaxşılaşdıran Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub.

Həmçinin ötən müddət ərzində əhalinin gəlirlərinin artırılması istiqamətində əməli tədbirlər görülmüş, minimum əməkhaqqının ölkə üzrə yaşayış minimumuna çatdırılması siyasəti davam etdirilmiş, əmək siyasəti və əməyin ödənilməsi sahəsində həyata keçirilən islahatlar nəticəsində işləyənlərin orta aylıq əməkhaqqının ilbəil artması əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin etmişdir. 2004-2018-ci illər ərzində orta aylıq əməkhaqqı 7 dəfə, orta aylıq pensiyalar 9,4 dəfə artmış, yoxsulluğun səviyyəsi 2004-cü ildəki 44,7 faizdən 2018-ci ildə 5,1 faizə düşmüşdür.

**Orta aylıq əməkhaqqı və yoxsulluq səviyyəsinin dinamikası (2003-2018-ci illər)**

Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşlarının təşviqi və stimullaşdırılması həyata keçirilən iqtisadi siyasət strategiyasının ana xəttinə çevrilmiş, ölkə iqtisadiyyatına 2004—2018-ci illər ərzində 244,9 milyard ABŞ dolları həcmində investisiya qoyulmuşdur. Eyni zamanda davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərcləri də dinamik olaraq artmış, investisiya xərcləri dövlət büdcəsində əhəmiyyətli çəkiyə malik olmuşdur.

**İqtisadiyyata qoyulmuş investisiyaların və qeyri-neft ÜDM-nin artım dinamikası (2004-2018-ci illər)**

Dövlətin sosialyönümlü iqtisadiyyat quruculuğu və insanların layiqli iş yerləri ilə təmin edilməsi istiqamətində apardığı siyasət öz müsbət tövhəsini vermiş, ölkənin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2004-2018-ci illər ərzində 1,5 milyonu daimi olmaqla, 2 milyondan artıq yeni iş yeri yaradılmışdır ki, bu iş yerlərinin də 75 faizi regionların payına düşmüşdür.

**Açılmış iş yerləri (2004-2018-ci illər)**

Ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılması məqsədilə 2004-2018-ci illər ərzində də innovasiya xarakterli texnologiyaların tətbiqi davam et dirilmiş, yeni müəssisələr yaradılmış, müəssisələrin istehsal potensialı artırılmış, ölkə sənayesində 2,6 dəfə real artım qeydə alınmışdır. Sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı 2003-cü ildə 56,8 faiz təşkil edirdisə, hal-hazırda isə 80 faizdən çoxdur.

**Açılmış müəssisələr (2004-2018-ci illər)**

Bütün bunlar sənayedə işgüzar fəallığın artmasına, yeni iş yerlərinin açılmasına, sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafına güclü təkan vermişdir.

Sənayenin maşınqayırma, metallurgiya, kimya, mebel, toxuculuq, qida və digər sahələrində dinamik artım baş vermiş, dünya iqtisadiyyatının böhranla üzləşdiyi dövrdə belə Azərbaycan sənayesinin qeyri-neft sektorunda inkişafa nail olunmuşdur. Regional inkişafla bağlı dövlət proqramları çərçivəsində qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə regionlarda sənaye parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində xeyli işlər görülmüşdür. Belə ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları ilə Sumqayıt Kimya Sənaye Parkı və Mingəçevir Sənaye Parkı, həmçinin Neftçala, Masallı, Hacıqabul və Sabirabad sənaye məhəllələri yaradılmışdır ki, bu da regionlarda sənaye sahəsində fəaliyyət göstərən sahibkarların, o cümlədən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, əlverişli biznes və investisiya mühitinin yaradılması, yeni iş yerlərinin açılması baxımından mühüm əhəmiyyətə malikdir.

Ölkədə kimya sənayesinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Fərmanı ilə yaradılmış Sumqayıt Kimya Sənaye Parkının ərazisi hazırda 508,14 hektar təşkil edir.

Sumqayıt Kimya Sənaye Parkında ümumilikdə 18 müəssisəyə rezident statusu verilmişdir. Sənaye Parkının rezidentlərindən olan, polad və polietilen boru, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edən "Azertexnolayn" MMC 2013-cü ildən fəaliyyətə

başlamış, müxtəlif təyinatlı sənaye məhsullarını istehsal edən “STP” MMC isə 2014-cü ildən Sənaye Parkının rezidenti statusunu almışdır. Sumqayıt Kimya Sənaye Parkında 2017-ci ildə daha 4 müəssisə - Aşağı, orta və yüksək təzyiqə davamlı xortum və fitinq birləşmələrini istehsal edən - “MST Engineering Services” MMC, yüksək keyfiyyətli sintetik və yarımsintetik sürtgü yağlan istehsal edən - “Alco Lubricant Company” MMC, pestisidlər və aqro-kimyəvi məhsullar istehsal edən - “Aqrokimya Azərbaycan” MMC, məlumatların (datanın) emalı, qeydə alınması və ötürülməsini həyata keçirən - “STDC” MMC, 2018-ci ildə isə elektron təhsil avadanlıqları istehsal edən - “Labdisc Azərbaycan” MMC, inşaat kimyəviləri zavodu, “Baku Non Ferrous and Foundry Company” MMC-nin əlvan metallar və ferroərintilər zavodu, “Tabaterra” Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabriki və “SOCAR Polymer” MMC-nin polipropilen zavodu fəaliyyətə başlamışdır.

Yüngül sənaye sahəsində idxaldan asılılığın azaldılması və ixrac potensialının artırılması, milli tekstil brendlərinin yaradılması istiqamətində həyata keçirilən işlərin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 fevral tarixli 1077 nömrəli Sərəncamı ilə Mingəçevir Sənaye Parkı yaradılmışdır. 2018-ci ilin birinci rübündə Mingəçevir Sənaye Parkında rezident kimi qeydiyyata alınmış “Mingəçevir Tekstil” MMC-nin iplik istehsalı üzrə 2 fabriki (“Ring” və “Open End” üsulu ilə) istifadəyə verilmiş və fabriklərdə 750 yeni iş yeri açılmışdır.

Regionlarda kiçik və orta sahibkarlığın genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsi, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi, məşğulluqda sənayenin xüsusi çəkisinin artırılması baxımından sənaye məhəllələrinin yaradılması da xüsusi önəm kəsb edir. Azərbaycanda ilk sənaye məhəlləsi olan Neftçala Sənaye Məhəlləsi Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə 24 sentyabr 2017-ci il tarixində istifadəyə verilmişdir. Neftçala Sənaye Məhəlləsində 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir.

Azərbaycan Respublikası və İran İslam Respublikası prezidentlərinin iştirakı ilə 2018-ci il mart ayının 29-da keçirilmiş Azərbaycan-İran biznes forumu çərçivəsində Neftçala Sənaye Məhəlləsində “Azərmaş” ASC və “İran Khodro” şirkətlərinin birgə yaratdığı “Khazar” Avtomobil Zavodunun rəsmi açılış mərasimi olmuşdur. Hazırda 125 nəfərin çalışdığı zavodda gələcəkdə işçilərin 300 nəfərədək artırılacağı planlaşdırılır. İllik istehsal gücü 10 min ədəd avtomobil olan zavodda istehsal olunan avtomobillərin bir hissəsi MDB, Yaxın Şərq və Afrika ölkələrinə ixrac ediləcəkdir. Gələcəkdə zavodun istehsal gücünün 50 min ədədə qədər artırılması planlaşdırılır.

Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə 18 sentyabr 2018-ci il tarixində istifadəyə verilmiş Masallı Sənaye Məhəlləsində isə 10 müəssisə fəaliyyət göstərir.

Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 25 iyul 2017-ci il tarixli Sərəncamı ilə yaradılmış Hacıqabul Sənaye Məhəlləsində və 27 noyabr 2017-ci il tarixli Sərəncamı ilə yaradılmış Sabirabad Sənaye Məhəlləsində tikinti işləri davam etdirilir.

Eyni zamanda dövlət başçısının tapşırığına əsasən, ölkəmizin digər regionlarında da sənaye məhəllələrinin yaradılması istiqamətində işlər davam etdirilir.

Qeyri-ənənəvi sənaye sahələri ilə yanaşı, regionlarda ənənəvi sənaye sahələrinin inkişafına da böyük diqqət göstərilir. Azərbaycan Respublikası Prezidentinin 5 may 2016-cı il tarixli 2032 saylı Sərəncamı ilə Azərbaycan Respublikasında xalça və xalça məmulatlarının istehsalını, ixracını, onların ölkə daxilində və xaricdə satışının təşkilini, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafını təmin etmək məqsədilə “Azərxalça” ASC yaradılmışdır.

Sözügedən Sərəncamın icrasının təmin edilməsi məqsədilə ölkədə xalçaçılığın inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilməkdədir. Belə ki, respublikanın 20 rayonunda “Azərxalça” ASC-nin xalça istehsalı fabrikləri yaradılmış, o cümlədən Füzuli rayonunun Horadiz qəsəbəsində, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı, Lənkəran və Ağdam rayonlarında xalça fabrikləri Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə istifadəyə verilmiş, daha 1 xalça istehsalı fabrikinin tikintisi isə davam etdirilir.

Həmçinin rəqabətqabiliyyətli və yeni texnologiyalara əsaslanan xalça və xalça məmulatlarının istehsalını təmin etmək üçün ölkədə xammal müəssisəsinin qurulması məqsədilə 15 dekabr 2017-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında “Azərxalça” ASC-nin Yunəyirici Boyaq Fabrikinin təməlqoyma mərasimi keçirilmiş və tikintisinə başlanılmışdır.

Eyni zamanda xammal bazasının təmin edilməsi məqsədilə respublikanın 5 şəhər və rayonunda (Naxçıvan şəhərində, Bərdə, Şabran, Qobustan rayonlarında və Sabirabad Sənaye Məhəlləsində) yun və təbii boyaq maddələri tədarükü məntəqələrinin tikintisi işlərinə başlanılmışdır.

Dövlət Proqramları çərçivəsində aqrar sahənin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər də əsas prioritet istiqamətlərdəndir. Aqrar sahənin vergilərdən azad edilməsi, subsidiyaların, güzəştli kreditlərin verilməsi və digər dövlət dəstəyi mexanizmlərinin tətbiqi, bu sahədə infrastrukturun yaxşılaşdırılması, dövlət investisiyaları hesabına Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları, Baş Mil-Muğan kollektorunun tikintisi və digər iri layihələrin reallaşdırılması, həyata keçirilən meliorativ tədbirlər, aqrotexniki xidmət işlərinin yerinə yetirilməsinin keyfiyyətini yüksəltmək üçün “Aqrolizinq” ASC-nin yaradılması, 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan edilməsi kimi tədbirlər bu sahənin inkişafına təkan vermişdir. Bunun nəticəsidir ki, ötən dövrdə ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Ötən müddət ərzində iri fermer təsərrüfatları, aqroparklar, intensiv bağçılıq təsərrüfatları, müasir istixanalar, logistik mərkəzlər yaradılmış, kənd təsərrüfatı məhsulları istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazası möhkəmləndirilmişdir.

Aqrar sektorun innovativ əsaslara keçirilməsi, o cümlədən aqroparkların yaradılması əsas hədəflərdəndir. Dövlət başçısının tapşırığına uyğun olaraq hazırda 33 rayon üzrə 258,3 min hektar ərazidə 51 aqroparkın, o cümlədən 17 müasir cins heyvandarlıq kompleksinin və 34 iri bitkiçilik təsərrüfatlarının yaradılması üzrə işlər sürətlə davam etdirilir.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti tərəfindən ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılığın, baramaçılığın, ipəkçiliyin, tütünçülüyün, çəltikçiliyin, çayçılığın, fındıqçılığın, sitrus meyvəçiliyinin, üzümçülüyün və şərabçılığın inkişafı istiqamətində imzalanmış sərəncamlar, təsdiq olunmuş sahəvi proqramlar, həmçinin istehsalçılara subsidiyaların verilməsi haqqında qəbul olunmuş qərarlar müvafiq sahələr üzrə istehsal və ixrac potensialının artırılmasına və məşğulluq səviyyəsinin yüksəlməsinə mühüm təkan vermişdir.

Aqrar sahədə həyata keçirilmiş sistemli tədbirlər nəticəsində ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlmiş, ərzaq məhsullarının istehsalı artmış, ixrac imkanları genişlənmişdir.

Dövlət proqramlarının icrası dövründə sahibkarlığın inkişafı sahəsində sistemli və ardıcıl tədbirlər həyata keçirilmiş, qanunvericilik bazası təkmilləşdirilmiş, inzibati prosedurlar sadələşdirilmiş, vergi yükü azaldılmış, sahibkarlığa sistemli dövlət dəstəyi tədbirləri həyata keçirilmişdir.

Ölkənin sahibkarlıq sektorunun inkişafı göstəricilərinin dinamikası həyata keçirilən iqtisadi islahatların uğurlu nəticələrinin əyani təsdiqidir.

“Azərbaycan İnvestisiya Şirkəti” ASC, Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu, Azərbaycan Respublikasının

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi, “Aqrolizinq” ASC, AZPROMO və digər institusional mexanizmlər vasitəsilə özəl sektora göstərilən dəstək sahibkarlığın inkişafı baxımdan əhəmiyyətlidir.

Həmçinin ölkədə maliyyə vəsaitlərinə çıxış imkanlarının, kreditlərə təminat verilməsi mexanizmlərinin yeni iqtisadi əsaslarla daha da təkmilləşdirirməsi, bu sahədə göstərilən xidmətlərin səviyyəsinin artırılması, əhalinin rifahının yüksəldilməsi, sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin edilməsi ilə bağlı həyata keçirilən tədbirlərin səmərəliliyinin daha da yüksəldilməsi və sistemliliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2017-ci il tarixli Fərmanı ilə “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu” qeyri-kommersiya hüquqi şəxsi yaradılmışdır.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli “Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi” haqqında Fərmanı ilə ölkədə investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi və səmərəli əlaqələndirmənin tətbiqi, mikro, kiçik və orta sahibkarlığın (bundan sonra - KOB) ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətinin artırılması, bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılması, maliyyə resurslarına KOB subyektlərinin çıxış imkanlarının genişləndirilməsi və institusional dəstək mexanizmlərinin formalaşdırılması, sahibkarlığın hüquqi təminatının gücləndirilməsi və regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaradılması əsasında dayanıqlı inkişafın təmin edilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi” yaradılmışdır.

Eyni zamanda son illərdə sahibkarlığın inkişafına dövlətin maliyyə dəstəyi daha da yaxşılaşmış, güzəştli kreditlərin həcmi əhəmiyyətli dərəcədə artmışdır. Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahəyə dövlət qayğısının artırılması məqsədilə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına bugünədək ölkə üzrə layihələrinin ümumi dəyəri 5 milyard manat olan 35600-dən çox sahibkara 2,3 milyard manat güzəştli kredit verilmişdir. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 165 mindən çox yeni iş yeri açılmışdır. Verilmiş güzəştli kreditlərin 1 milyard manatı büdcə, 1,3 milyard manatı geri qaytarılan vəsaitlər hesabına təmin edilmişdir. Güzəştli kreditlərin 68 faizi aqrar sektorun, 32 faizi müxtəlif sənaye və digər sahələrin inkişafına yönəldilmişdir. Verilmiş kreditlərin 75 faizi regionların, 25 faizi isə Bakı qəsəbələrinin payına düşür.

**Verilmiş güzəştli kreditlərin həcmi (milyon manatla)**

**Güzəştli kredit verilmiş sahibkarların sayı**

Özəl bölmənin inkişafında əhəmiyyətli mexanizmlərdən olan “Aqrolizinq” ASC vasitəsilə 2004-cü ildən kənd təsərrüfatı texnikası lizinqə verilir, pestisidlər, texnoloji avadanlıqlar, tinglər, toxumlar, cins damazlıq heyvanlar güzəştli şərtlərlə istehsalçılara çatdırılır, aqrotexniki xidmətlər göstərilir.

Regionlarda sahibkarlıq fəaliyyətinə yeni başlayanların dəstəklənməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən Xaçmazda və Yevlaxda yerləşən regional inkişaf mərkəzlərində biznes inkubatorlar yaradılmışdır. Lazımi şərait və avadanlıqlarla, eləcə də tədris materialları ilə təmin olunmuş biznes inkubatorlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə biznesin sirləri öyrədilir. Hazırda mövcud biznes inkubatorların inkişaf etdirilməsi və yenilərinin yaradılması imkanları araşdırılır.

Dövlət başçısının rəhbərliyi ilə yeni qlobal çağırışlar nəzərə alınmaqla həyata keçirilən iqtisadi islahatlara uyğun olaraq, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-nə kimi dayandırılmış, sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə apellyasiya şuraları yaradılmış, ixracın və investisiyaların təşviqi mexanizmləri formalaşdırılmış, dövlət satınalmalarında yerli mallar üçün güzəştlər müəyyən olunmuş, gömrük prosedurları sadələşdirilmiş, tələb olunan sənədlərin sayı azaldılmış və konkretləşdirilmiş, idxal-ixrac əməliyyatları sahəsində mütərəqqi mexanizmlər tətbiq edilmiş, sahibkarların vergi yükü azaldılmış, kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı üçün subsidiyalar müəyyənləşdirilmişdir.

İxracın stimullaşdırılması istiqamətində işlər davam etdirilmiş, 24 ixrac missiyası təşkil olunmuş, beynəlxalq sərgilərdə “Made in Azerbaijan” vahid ölkə stendləri ilə Azərbaycan ixracatçılarının iştirakı təmin olunmuş, xarici ölkələrdə ticarət evlərinin yaradılması istiqamətində müvafiq tədbirlər görülmüş, Belarusda, Ukraynada, Latviyada, Çində və Polşada ticarət evləri, Rusiya Federasiyasının Həştərxan vilayətində Azərbaycan iş mərkəzi yaradılmış, Çin Xalq Respublikasının Urumçi və Şanxay şəhərində Azərbaycan Şərab Evləri açılmış, Rusiya, Çin, Birləşmiş Ərəb Əmirlikləri və Polşada ticarət nümayəndələri təyin edilmiş və müxtəlif qeyri-neft məhsulları ixracatçılarına ixrac təşviqi ödənilmişdir ki, bu da ölkədə qeyri-neft ixracının artımına təkan vermişdir.

Sahibkarlığın inkişafı məqsədilə həyata keçirilən islahatların tərkib hissəsi kimi, lisenziyalar Və icazələr sisteminin tənzimlənməsi və inzibati prosedurların sadələşdirilməsi istiqamətində aparılan kompleks tədbirlər nəticəsində lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı 330-dan 86-ya endirilmiş, yeni verilən və qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilmiş, lisenziyaların verilməsinə görə dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılmış, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilmiş və prosedurlar sadələşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanlarına əsasən, lisenziyaların və icazələrin elektron qaydada verilməsini, göstərilən xidmətlərin daha da təkmilləşdirilməsini təmin etmək üçün İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə “Lisenziyalar və icazələr” portalı yaradılmışdır ki, bu da sahibkar məmnunluğunun təmin edilməsi istiqamətində əhəmiyyətli tədbirlərdən biri olmuşdur.

İnvestisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, ölkə iqtisadiyyatına sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə sahibkarlara investisiya təşviqi sənədlərinin verilməsinə başlanmış, 2016-2018-ci illər ərzində 292 sahibkarlıq subyektinə 333 investisiya təşviqi sənədi təqdim edilmişdir. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 2,8 milyard manat investisiya yatırılacağı, 22 minədək yeni iş yerinin açılacağı nəzərdə tutulmuşdur.

İqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin işinin əlaqələndirilməsi, müvafiq sahənin inkişafı ilə bağlı təkliflərin hazırlanması məqsədilə Meyvə-Tərəvəz, Şərab, Fındıq, Nar, Xurma, Tütün, Tekstil, Çay, Zeytun, Süd və Süd Məhsulları istehsalçıları və ixracatçıları, Tikinti Materialları, Mebel, Maşın və Avadanlıq istehsalçıları, Arıçılar, Qablaşdırma Sənayesi, Qadın Sahibkarlığının İnkişafı assosiasiyaları, İxracatçılar Klubu yaradılmışdır.

Ötən müddət ərzində ölkənin müxtəlif bölgələrində müntəzəm olaraq təşkil edilmiş biznes forumlar yerli və müxtəlif ölkələrdən olan iş adamları, sahibkarlar arasında maarifləndirmə işinin təşkilinə, onların məlumat əldəetmə imkanlarının genişləndirilməsinə, ölkə regionlarının mövcud təbii və əmək resurslarından səmərəli istifadə edilməsi, habelə xarici

investisiyaların cəlb edilməsi prosesinin dəstəklənməsinə müsbət təsir göstərmişdir.

İqtisadiyyatın sürətlə inkişafı, Azərbaycanın dünya ölkələri arasında nüfuzunun yüksəlməsi ölkəmizə marağın artmasına səbəb olmuş, respublikamıza gələn turistlərin sayının ildən-ilə çoxalmasına, bir sözlə, turizm fəaliyyətinin genişlənməsinə şərait yaratmışdır. Turizm ehtiyatlarından səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin və eləcə də xalqımızın mədəni-tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2011-ci il ölkəmizdə "Turizm ili" elan edilmişdir. Ötən müddətdə Bakı ilə yanaşı, regionlarda da turizm komplekslərinin, otellərin, istirahət mərkəzlərinin istifadəyə verilməsi turizm infrastrukturunun inkişafına və beləliklə əhalinin istirahətinə geniş imkanlar yaratmışdır. 2003-cü ildə ölkədə cəmi mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 96 olduğu halda, regionların inkişafı istiqamətində qəbul olunmuş dövlət proqramlarının icrası nəticəsində belə obyektlərin sayı artaraq 560-ı keçmişdir ki, bunun da 400-dən çoxu regionlarda fəaliyyət göstərir. Hazırda regionlarda yeni mehmanxanaların tikintisi istiqamətində işlər uğurla davam etdirilir. Bunun nəticəsidir ki, son 15 ildə turizmin inkişafı sahəsində 15 dəfədən çox artım qeydə alınmışdır.

Həmçinin turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış 20 aprel 2018-ci il tarixli Sərəncamla Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin yaradılması turizmin inkişafında yeni imkanlar açmış və bu sahədə gələcək hədəfləri müəyyənləşdirmişdir.

Son illərdə inkişaf edən infrastruktur sahələrindən biri də nəqliyyat sektorudur ki, bu sahəyə davamlı və iri həcmli investisiyaların yönəldilməsi nəticəsində nəqliyyat vasitələrinin yeniləşməsi, körpülərin tikilməsi, yeni avtomobil yollarının çəkilişi, yenidən qurulması və s. işlər davam etdirilmiş, strateji əhəmiyyətli layihələrin səmərəli fəaliyyəti sahənin inkişafına öz müsbət təsirini göstərmiş, ümumilikdə bu sahədə 2,8 dəfə artıma nail olunmuşdur.

Ölkənin tranzit potensialının reallaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər görülmüş, o cümlədən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyəti güclənmiş, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilmiş, Azərbaycanın tranzit potensialının artırılmasında böyük əhəmiyyətə malik olan Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı olmuşdur ki, bununla da sözügedən marşrutla Azərbaycan ərazisindən keçməklə daşınacaq yüklərin həcmləri əhəmiyyətli dərəcədə artacaq və bu da öz növbəsində qeyri-neft sektorunun inkişafına təkan verəcəkdir.

Bundan başqa, 2018-ci il may ayının 14-də Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışı olmuşdur. Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi yeni liman üçün zəngin tranzit potensialı yaratmaqla, ölkəyə daxil olan, ölkədən çıxan və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirməyə imkan verəcəkdir.

Həmçinin son 15 ildə regionlarda 6 hava limanı tikilmiş və yenidən qurulmuş, 14 min kilometrdən çox respublika və yerli əhəmiyyətli yolda təmir-tikinti işləri aparılmış, 436 ədəd körpü və tunel tikilmiş və təmir olunmuşdur.

Mövcud informasiya və rabitə sahələrinin intensiv və yüksək səviyyədə inkişafı, yeni xidmət növlərinin, o cümlədən mobil telefon rabitəsinin, internetin ölkəmizdə təşəkkül tapması və genişlənməsi ilə səciyyələnir. XXI əsrdə Azərbaycanda informasiya cəmiyyətinə keçid və onun qurulması, elektron hökumətin formalaşdırılması və intellektual potensialın inkişafı sayəsində neft sektorundan sonra prioritet sahələrdən biri hesab olunan informasiya və kommunikasiya texnologiyaları sahəsi ölkənin sosial-iqtisadi həyatına son illər daha ciddi nüfuz etmişdir. Son 15 ildə regionlarda 1600-dən çox ATS, 1000-dən çox poçt binası tikilmiş və ya əsaslı təmir edilmişdir. 2013-cü il ölkəmizdə "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmiş və həmin il fevral ayının 8-də ölkəmizin ilk telekommunikasiya peyki orbitə çıxarılmışdır. Dövlət proqramlarının icrası dövründə görülmüş işlər nəticəsində ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan və əsas prioritet istiqamətlərdən biri olan informasiya və rabitə sahəsinin inkişafında 11 dəfədən çox artıma nail olunmuşdur.

İnsanların sağlam təbii mühitdə yaşamaları və təbii sərvətlərdən xalqın rifahının yaxşılaşması naminə istifadəsi məsələləri daim ön planda saxlanılmış, ekologiyanın və təbii mühitin tarazlığının qorunması, əhalinin təmiz suya və havaya olan ehtiyaclarını təmin etmək məqsədilə son illər ərzində bir sıra tədbirlər həyata keçirilmişdir.

Ölkədə xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi və ekoturizmin inkişaf etdirilməsi məqsədilə 2003-cü ildən başlayaraq Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu, Eldar şamı, Korçay dövlət təbiət qoruqları, eləcə də Abşeron, Ağgöl, Göygöl, Şahdağ, Şirvan, Akademik Həsən Əliyev adına Zəngəzur, Hirkan, Altıağac və Samur-Yalama milli parkları yaradılmış, xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 430 min hektardan 893 min hektaradək artırılmışdır. Bu dövrdə yaşıllıqların salınması işləri davam etdirilmiş, 133 min hektar ərazidə meşəbərpa və meşəsalma tədbirləri aparılmışdır.

Həmçinin, Bakı şəhərinin Balaxanı qəsəbəsində təbii sərvətlərə və enerjiyə qənaət etməyə, ətraf mühitə mənfi təsirlərin azaldılmasına imkan verən bərk məişət tullantılarının çeşidlənməsi və yandırılması zavodları istifadəyə verilmiş, Heydər Əliyev Fondunun "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" layihəsi çərçivəsində ceyran sürüləri tarixi ərazilərə buraxılmışdır.

Dövlət Proqramları çərçivəsində regionlarda infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatı, *tibb* və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilmişdir.[1]

Əhalinin elektrik enerjisinə olan tələbatım daha dolğun təmin etmək məqsədilə son 15 ildə regionlarda 28 elektrik stansiyası istifadəyə verilmiş, 45 min kilometrdən artıq elektrik xətti çəkilmiş və 1650-dən çox yarımstansiya quraşdırılmış və ya təmir olunmuşdur. Həmçinin bu dövrdə regionlarda 56,2 min kilometr qaz xətti çəkilmiş və ya əsaslı təmir olunmuş, 1800-dən çox yaşayış məntəqəsi təbii qazla təmin edilmiş, regionlar üzrə qazlaşdırma səviyyəsi 41 faizdən 93,2 faizə çatmışdır.

Əhalinin su təminatının yaxşılaşdırılması üçün yeni su və kanalizasiya xətləri çəkilmiş, yeni su anbarları istifadəyə verilmişdir. Belə ki, Dövlət Proqramları çərçivəsində regionlarda 11 min kilometr su, 6 min kilometr kanalizasiya xətti çəkilmiş, 223 su anbarı inşa olunmuş və ya yenidən qurulmuşdur. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması üçün 466 modul tipli su-təmizləyici qurğular quraşdırılmış, fasiləsiz içməli su ilə təmin olunan əhalinin sayı regionlarda 9 faizdən 43,5 faizə yüksəlmişdir.

Kənd təsərrüfatı məhsulları istehsalının artırılması və yeni əkin sahələrinin dövriyyəyə daxil edilməsi məqsədilə meliorasiya və irriqasiya layihələrinin həyata keçirilməsi regionlarda aqrar sahənin davamlı inkişafında xüsusi rol oynamışdır. Dövlət Proqramlarına uyğun olaraq kənd yerlərində torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılmasına, torpaq və su ehtiyatlarından səmərəli istifadə edilməsinə xüsusi önəm verilmiş, 4,2 min kilometr suvarma kanallarının tikintisi, bərpası və yenidən qurulması işləri aparılmış, Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları tikilmiş, 413 min hektar torpaq sahələrinin su təminatı yaxşılaşdırılmış, 2285 subartezian quyusu qazılmışdır.

Regionların inkişafında sosial məsələlərin həlli ilə bağlı zəruri tədbirlər davam etdirilmiş, insan amili daim diqqət mərkəzində saxlanılmış, bu sahəyə xidmət edən sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüşdür. Təhsil, səhiyyə, mədəniyyət və digər sosial layihələrin reallaşdırılmasında mühüm rolu olan Heydər Əliyev Fondunun təşəbbüsü

ilə həyata keçirilən layihələrin miqyası minlərlə insanın sosial şəraitinin yaxşılaşması üçün yeni imkanlar açmışdır.

Son 15 ildə regionlarda 2980 məktəbdə, 360 məktəbəqədər təhsil müəssisəsində və 477*tibb* müəssisəsində tikinti, əsaslı təmir və yenidənqurma işləri həyata keçirilmiş, regionlarda 34 olimpiya idman kompleksi, 34 gənclər evi. inşa olunmuşdur.

Həmçinin insan kapitalının inkişafı, yeni istehsalat və xidmət sahələrinin ixtisaslı kadrlara ehtiyacını təmin etmək məqsədilə "2007-2015-ci illərdə. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə Azərbaycan gənci dünyanın nüfuzlu ali təhsil müəssislərində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil almışlar.

Həyata keçirilən siyasətin mühüm istiqamətlərindən biri də əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan hissəsinə, o cümlədən *əlilliyi olan şəxslər*ə, müharibə veteranlarına, aztəminatlı vətəndaşlara, qaçqın və məcburi köçkünlərə xüsusi diqqətin göstərilməsidir. Bu dövrdə *əlilliyi olan şəxs* və şəhid ailələrinin mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilmiş, 5700-dən çox *əlilliyi olan şəxs* və şəhid ailəsi mənzillə təmin olunmuşdur.[2]

"Böyük Qayıdış"ın rəmzinə çevrilən Cəbrayıl rayonunun Çocuq Mərcanlı kəndinə 24 illik fasilədən sonra qayıdan sakinlər üçün 150 fərdi yaşayış evi, məktəb, uşaq bağçası, məscid binası tikilmiş, infrastruktur işləri həyata keçirilmişdir. Həmçinin kənddə məşğulluğun təmin edilməsi üçün yem emalı müəssisəsi, istixana kompleksi tikilmiş, əhaliyə arı ailələri paylanılmışdır. Bununla da, Çocuq Mərcanlı Azərbaycan torpaqlarının təcavüzkar Ermənistan tərəfindən işğal olunması nəticəsində öz yurd-yuvasından didərgin düşmüş məcburi köçkünlərin doğma torpaqlarına qayıtdığı ilk yaşayış məskəni kimi tarixə düşmüşdür.

Ümumiyyətlə, indiyədək məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə 102 qəsəbə və ya yaşayış kompleksi salınmış, 300 minədək məcburi köçkün mənzillə təmin olunmuşdur.

2004-cü ildən etibarən icra olunan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları hesabına ölkə əhalisinin 77 faizinin yaşadığı regionların sosial infrastrukturu köklü şəkildə yaxşılaşdırılmış, əhalinin rifah halı yüksəlmişdir.

### 3. Dövlət Proqramının konseptual əsasları və regional inkişaf sahəsində beynəlxalq təcrübə

Regionların sosial-iqtisadi inkişafı üzrə mövcud nəzəri-metodoloji yanaşmalar və mütərəqqi beynəlxalq təcrübələr göstərir ki, müasir dövrdə bu istiqamətdə hazırlanan və həyata keçirilən siyasət sənədlərində davamlı (iqtisadi-sosial- ekoloji) inkişaf konsepsiyasına əsaslanan kompleks yanaşmaya daha çox üstünlük verilir. Bu onunla izah olunur ki, cəmiyyətin tarixi inkişafının obyektiv gedişi (təbii resursların - faydalı qazıntıların, torpaq, su və meşə resurslarının - məhdudlaşması, ekologiyaya zərər vuran istehsalların genişlənməsi, torpaqların istismarının intensivləşməsi, bitkiləri mühafizə vasitələrindən nəzarətsiz istifadə və s. nəticəsində təbii resurslara insanın antropogen təsirinin güclənməsi) bəşəriyyəti mövcud və sonrakı nəsillərin davamlı inkişafının təmin olunması zərurəti qarşısında qoyur.

Regional inkişaf sahəsində beynəlxalq (Avropa İttifaqı ölkələri, ABŞ, Çin, Yaponiya, Rusiya, Qazaxstan) təcrübələrin təhlili göstərir ki, müasir dövrdə bu istiqamətdə həyata keçirilən siyasətin paradiqması dəyişir. Belə ki, köhnə paradiqmada əsas problem kimi gəlirlər, məşğulluq, fiziki və bazar infrasrukturu üzrə regional fərqlər önə çəkilirdisə, yeni paradiqmada regionların potensialından istifadənin səmərəliliyinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin daha da artırılması, yaşıl iqtisadiyyatın formalaşması, innovativ yanaşmaların tətbiqi kimi məsələlər önə çəkilir. Hazırda Azərbaycanda regionların inkişafı siyasəti əsas etibarilə milli səviyyədə hazırlanan regional inkişaf proqramlarına əsaslanır. Bu proqramların icrası nəticəsində regionlarda sosial və fiziki infrastruktur sahələrinin inkişafı, beynəlxalq standartlara uyğun yeni müəssisələrin və iş yerlərinin yaradılması, əhalinin rifahının yüksəldilməsi istiqamətində irimiqyaslı işlər görülmüş və əhəmiyyətli sosial-iqtisadi nəticələr əldə olunmuşdur.

Yuxarıda qeyd olunan paradiqma dəyişikliyi prizmasından çıxış edərək Azərbaycanda da regionların inkişafının planlaşdırılmasında və həyata keçirilməsində yerli idarəetmə, o cümlədən yerli özünüidarəetmə orqanlarının və kənd icmalarının daha fəal cəlb olunması yolu ilə hər bir vətəndaşın həyat səviyyəsinin yaxşılaşdırılması sahəsində tədbirlər nəzərdə tutulur.

Qeyd olunanlar nəzərə alınaraq, Dövlət Proqramı hazırlanarkən davamlı inkişaf prinsipləri, o cümlədən BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf Gündəliyi" ilə müəyyən olunan Dayanıqlı İnkişaf Məqsədləri, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanına müvafiq olaraq təsdiq edilmiş Milli iqtisadiyyat və iqtisadiyyatın 11 prioritet sektorunun (neft və qaz sənayesi (kimya məhsulları daxil olmaqla); kənd təsərrüfatı məhsullarının istehsalı və emalı; kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı; ağır sənaye və maşınqayırma; ixtisaslaşmış turizm sənayesi; logistika və ticarət; uyğun qiymətə mənzil təminatı; peşə təhsili və təlimi; maliyyə xidmətləri; telekommunikasiya və informasiya texnologiyaları; kommunal xidmətlər (elektrik və istilik enerjisi, su və qaz)) inkişafı üzrə strateji yol xəritələri, Azərbaycan Respublikası ilə beynəlxalq tərəfdaşlar arasında imzalanmış əməkdaşlıq sazişləri və həyata keçirilən layihələr nəzərə alınmışdır.

Mütərəqqi dünya təcrübəsi göstərir ki, hər bir ölkənin, onun regionlarının, şəhər və kəndlərinin sosial-iqtisadi inkişafında çevik və səmərəli idarəetmə mexanizmləri, innovativ həllərin tətbiqi mühüm rol oynayır.

Hazırda qarşıda duran əsas məsələ beynəlxalq təcrübədə təsdiqini tapmış ən yaxşı iqtisadi mexanizmlərin tətbiqi ilə əldə olunan səmərənin artırılmasıdır.

### 4. Dövlət Proqramının əsas məqsədi, vəzifələri və icrasının prioritet istiqamətləri

Proqramın əsas məqsədi Azərbaycan Respublikasında regionların davamlı və tarazlı inkişafının təmin olunması, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmaqdan ibarətdir.

Bu məqsədə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- regionlarda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi;
- mütərəqqi texniki avadanlıqlar və texnologiyaların tətbiqi əsasında yerli iqtisadi (təbii-iqtisadi, istehsal-texniki və elmi-texniki) potensialın gücləndirilməsi və təsərrüfat dövriyyəsinə mümkün qədər daha tam cəlb olunması;
- iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi (digər müqayisəli üstünlüyə malik, əlavə dəyər yaradan məhsul və xidmət istehsalı sahələrinin də inkişaf etdirilməsi) və səmərəliliyinin yüksəldilməsi hesabına rəqabətqabiliyyətliliyinin artırılması;
- mühüm növ ərzaq məhsulları ilə ölkənin özünütəminetmə səviyyəsinin yüksəldilməsi;
- ekoloji təmiz məhsul istehsalının artırılması;
- regionlarda məşğulluq imkanlarının artırılması;
- sahibkarlığın, o cümlədən KOB-ların inkişafının sürətləndirilməsi, onların maliyyə dayanıqlılığının möhkəmləndirilməsi;
- KOB-larln inkişafı sahəsində dövlət qurumları tərəfindən sahibkarlara vahid məkanda daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə xidmətlərin (o cümlədən zəruri səyyar xidmətlərin) göstərilməsinin təmin edilməsi;

• regionların inkişaf potensialının reallaşdırılmasına dəstək məqsədilə yeni KOB-ların yaradılması, mövcud KOB-ların inkişafı, dövlət dəstək mexanizmlərinə KOB-ların rahat çıxışını təmin edəcək KOB Dostları şəbəkəsinin ölkə üzrə formalaşdırılması və səmərəli fəaliyyətinin təmin edilməsi;

• regionlarda müxtəlif turizm növlərinin inkişafının dəstəklənməsi, o cümlədən turizm sahəsində göstərilən xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması;

• sosial xidmətlərin çeşidinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması və aztəminatlı insanlar üçün əlçatanlığının təmin edilməsi;

• regionların dayanıqlı inkişafının təmin olunması, yaşayış üçün rahat şərait yaradılması, bölgələrdə, o cümlədən kənd yerlərində yaşayış tərzinə müsbət münasibətin formalaşdırılması;

• regionlarda əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluğun azaldılması, o cümlədən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi;

• ətraf mühitin mühafizəsinin etibarlılığının və təbii resursların idarə olunmasının dayanıqlığının artırılması;

• regionlarda bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi;

• paytaxtla regionlar arasında sosial-iqtisadi inkişaf səviyyəsində bərabərsizliyin daha da azaldılması;

• regionlarda təhsil, *tibb* və digər sosial xidmətlərin səviyyəsinin yaxşılaşdırılması istiqamətində stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi; [3]

• yaşayış evlərinə göstərilən kommunal xidmətlərin səviyyəsinin (təchizatla yanaşı, texniki xidmət məsələləri və s.) yüksəldilməsi istiqamətində tədbirlərin davam etdirilməsi və kommunal xidmət haqları üzrə istehlakçıların ödəniş imkanlarının genişləndirilməsi;

• regionlarda texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ istilik mənbələri ilə təminatı;

• kəndlərdə yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi;

• əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması.

Bu vəzifələrin həyata keçirilməsi üçün aşağıdakı istiqamətlərdə siyasət tədbirlərinin həyata keçirilməsi planlaşdırılır:

• regionların inkişafı ilə əlaqədar qanunvericilik bazasının, iqtisadi və institusional mexanizmlərin təkmilləşdirilməsi;

• regionlarda işləməyən və ya zərərlə işləyən istehsal müəssisələrinin yenidənqurulması, sağlamlaşdırılması və özəlləşdirilməsinin sürətləndirilməsi;

• yerlərdə müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələri şəbəkəsinin genişlənməsinin dəstəklənməsi;

• kənd təsərrüfatında istehsalın intensiv üsullarla artırılması üçün dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi;

• regionlarda digər müqayisəli üstünlüyə malik, əlavə dəyər yaradan məhsul istehsalı və xidmət sahələrinin də inkişaf etdirilməsinin həvəsləndirilməsi mexanizmlərinin yaradılması;

• fermer tərəfdaşlığının və kənd təsərrüfatında kooperasiyanın inkişafının təşviqi;

• aqrar-sənaye inteqrasiyasının inkişafının dəstəklənməsi;

• innovativ təsərrüfatçılıq formalarının yaradılması və inkişafının dəstəklənməsi mexanizmlərinin həyata keçirilməsi;

• regionların inkişafı üzrə elmi tədqiqatların və kadr hazırlığının genişləndirilməsinin və keyfiyyətinin yüksəldilməsi üzrə işlək mexanizmlərin yaradılması;

• elmi tədqiqat fəaliyyətlərinin praktika ilə əlaqələndirilməsinin dəstəklənməsi;

• məhsul və xidmət istehsalı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin daha da sağlamlaşdırılması;

• KOB-lara operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında şəhər və regionlarda xidmətlərin təşkili;

• sahibkarların və fermerlərin maliyyə resurslarına çıxış imkanlarının asanlaşdırılması;

• regionlarda sığorta sisteminin inkişaf etdirilməsi;

• bazarlara, o cümlədən ixrac bazarlarına çıxış imkanlarının asanlaşdırılması, bu istiqamətdə geniş və əhatəli təşviq tədbirlərinin gücləndirilməsi;

• istehsal, sosial və bazar infrastrukturunun modemləşdirilməsinə dəstək verilməsi;

• sosial xidmətlərin çeşidinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması və aztəminatlı insanlar üçün əlçatanlığının təmin edilməsi;

• yerlərdə ekoloji təmiz məhsul istehsalının inkişafının dəstəklənməsi;

• təbii ehtiyatlardan səmərəli istifadə olunması və ekoloji təhlükəsizliyin qorunması üzərində nəzarətin gücləndirilməsi;

• bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsi və dəstəklənməsi;

• təhsil, *tibb* və digər sosial xidmətlərin inkişafı məqsədilə mütəxəssislərin regionlara cəlb olunması üçün onların mənzil (və ya fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsi) ilə təminatı istiqamətində tədbirlərin görülməsi.

## 5. Dövlət Proqramının icrasından gözlənilən nəticələr

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində aşağıdakı nəticələr əldə olunacaqdır:

• regionların, o cümlədən kənd yerlərinin inkişaf potensialı daha da güclənəcək və bu potensialdan istifadənin səmərəliliyi yüksələcək;

• regionlarda iqtisadiyyat daha da şaxələndiriləcək, yeni müasir emal müəssisələri açılacaq, qeyri-neft sənayesi daha da inkişaf edəcək;

• yerli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi daha da artacaq;

• kənd təsərrüfatı məhsullarının istehsal və emal həcmində yüksək artım dinamikası əldə ediləcək;

• regionların məhsul istehsalı və emalı üzrə ixtisaslaşması dərinləşəcək;

• qeyri-neft ixracının həcmi və çeşidi daha da artacaq;

• fermer tərəfdaşlığı və kənd təsərrüfatında kooperasiya, o cümlədən aqrar-sənaye inteqrasiyası inkişaf edəcək;

• məhsuldarlıq və əlavə dəyər artacaq;

• regionlarda məşğulluq imkanları artacaq;

• regionlarda xidmət sektoru daha da inkişaf edəcək;

• regionların turizm potensialı daha da inkişaf edəcək;

• regionlarda KOB-ların sayı artacaq, onların fəaliyyəti genişlənəcək və yerli iqtisadiyyatda əlavə dəyərin artımına təkan verəcək;

• kiçik fermer təsərrüfatları inkişaf edərək müasir və iri fermer təsərrüfatları yaranacaq;
• istehsal olunan məhsul və xidmətlərin rəqabətqabiliyyətliliyi daha da artacaq;
• regionlarda kommunal xidmətlərin və sosial infrastrukturun keyfiyyəti daha da yüksələcək;
• regionlarda yüksək sürətli fiber-optik genişzolaqlı internet və müasir rabitə xidmətləri ilə təchizat artacaq;
• regionların enerji resursları ilə təminatı daha da yüksələcək;
• regionların davamlı və tarazlı sosial-iqtisadi inkişafına nail olunacaq.

## 6. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirmə mənbələri

Dövlət Proqramı üzrə tədbirlərin icrasının aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:
• dövlət büdcəsi;
• büdcədənkənar fondlar;
• Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu, "Azərbaycan İnvestisiya Şirkəti" ASC, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitləri;
• yerli və xarici investisiyalar;
• qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

| Dövlət Proqramının həyata keçirilməsi üzrə<br>TƏDBİRLƏR PLANI | | | |
|---|---|---|---|
| Sıra-si | Tədbirin adı | İcra müddəti | İcraçılar |
| 1 | 2 | 3 | 4 |
| | 7.1. Ölkə əhəmiyyətli tədbirlər | | |
| Qeyri-neft sektorunun inkişafı | | | |
| 7.1.1. | Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin bilik və bacarıqlarının artırılması, həmçinin onların beynəlxalq təcrübəyə yiyələnməsi məqsədi ilə ixtisasartırmanın təşkili | 2019-2021 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.2. | Sahibkarlara vahid məkanda sahibkar məmnunluğu, operativlik, şəffaflıq, nəzaketlilik, məsuliyyət və rahatlıq prinsiplərinə uyğun olaraq xidmət göstərilməsinin təşkili məqsədilə ölkənin şəhər və rayonlarında KOB evlərinin yaradılması | 2019-2023 | İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 7.1.3. | Ölkədə fəaliyyət göstərən sahibkarların işini əlaqələndirmək, sahibkarlığın təchizat zənciri sisteminin, satınalma şəbəkəsinin yaradılması və idarə edilməsi üçün elektron formada xidmətlərin təşkili | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi |
| 7.1.4. | Regionlarda özəl investisiya fəallığının artırılması və investisiyaların cəlb edilməsi istiqamətində təşviq və dəstək tədbirlərinin davam etdirilməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.5. | İri fermer təsərrüfatlarında tətbiq olunan mütərəqqi texnologiyaların və aqrotexniki qaydaların digər kənd təsərrüfatı məhsulları istehsalçıları arasında təbliği və istifadəsinin təşviqi ilə bağlı tədbirlərin davam etdirilməsi | 2019-2023 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.6. | Kənd təsərrüfatı üzrə informasiya-məsləhət xidmətlərinin göstərilməsi sisteminin inkişaf etdirilməsi və məsləhətçilər şəbəkəsinin genişləndirilməsi | 2019-2023 | Kənd Təsərrüfat Nazirliyi, İqtisadiyyat Nazirliyi |
| 7.1.7. | Ölkədə ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı və kənd təsərrüfatı məhsulları istehsalçılarının xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi ilə bağlı sahibkarlar arasında maarifləndirici tədbirlərin davam etdirilməsi | 2019-2023 | Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.8. | Kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara çıxışının asanlaşdırılması ilə bağlı təkliflərin hazırlanması və tədbirlərin həyata keçirilməsi | 2019-2023 | Kənd Təsərrüfatı Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi, Vergilər Nazirliyi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, yerli icra hakimiyyətləri |
| 7.1.9. | Kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşma nəzərə alınmaqla rayonlaşmanın müəyyən edilməsinin və məsləhət bürosunun fəaliyyət göstərməsinin təşkili istiqamətində işlərin görülməsi | 2019-2023 | Kənd Təsərrüfat Nazirliyi |
| 7.1.10. | Yerli istehsalçıların tədarük-təchizat sisteminə qoşulması üçün kənd, rayon, region tipli tədarük infrastrukturunun yaradılması | 2019-2023 | Kənd Təsərrüfat Nazirliyi |
| 7.1.11. | Tədarük-təchizat zəncirinin iştirakçıları arasında real vaxt rejimində məlumat və ticarət inteqrasiyasını təmin edəcək elektron informasiya mübadilə sisteminin qurulması | 2019-2023 | Kənd Təsərrüfatı Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| 7.1.12. | Seçilmiş məhsullar və regionlar üzrə Global GAP və ekoloji təmiz məhsul istehsalı üzrə tələblərə uyğun fəaliyyət göstərən istehsal klasterlərinin yaradılması | 2019-2023 | Kənd Təsərrüfatı Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi |
| 7.1.13. | Regionlarda baytarlıq-sanitariya və sanitariya-gigiyena tələblərinə uyğun müasir kiçik və orta tutumlu ət kəsimi məntəqələrinin yaradılmasının təşviq edilməsi və dəstəklənməsi | 2019-2023 | Qida Təhlükəsizliyi Agentliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 7.1.14. | Torpaqların münbitliyinin bərpası məqsədilə üzvi mineral gübrə istehsalı müəssisələrinin yaradılmasının təşviq edilməsi və dəstəklənməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 7.1.15. | Uzun müddət becərilən torpaqların münbitliyinin bərpası məqsədilə üzvi mineral gübrələnmə sistemlərinin işlənilməsi və tətbiqi | 2019-2023 | Azərbaycan Milli Elmlər Akademiyası, Kənd Təsərrüfatı Nazirliyi |
| 7.1.16. | Təbii (bitki) mənşəli bioloji fəal maddələrin və biotənzimləyicilərin istehsalı üzrə regional klasterlərin yaradılması | 2019-2022 | Azərbaycan Milli Elmlər Akademiyası, Kənd Təsərrüfatı Nazirliyi |

| | | | |
|---|---|---|---|
| 7.1.17. | Aqrar məhsulların keyfiyyətinin yüksəldilməsi, beynəlxalq ticarətdə sərbəst dövriyyəsinə şərait yaradılması üçün aqrar məhsulların keyfiyyətinə dair qüvvədə olan milli standartların beynəlxalq standartlara uyğunlaşdırılması | 2019-2020 | Qida Təhlükəsizliyi Agentliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi |
| 7.1.18. | Mikro, kiçik və orta sahibkarlar tərəfindən istehsal olunan məhsulların sertifikatlaşdırılmasının sadələşdirilmiş qaydada "bir pəncərə" prinsipi əsasında təşkili | 2019-2020 | Qida Təhlükəsizliyi Agentliyi, İqtisadiyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi |
| 7.1.19. | Mikro, kiçik və orta sahibkarlar tərəfindən istehsal olunan məhsulların mütəmadi sınaqlarının aparılması üçün regionlarda beynəlxalq tələblərə cavab verən sınaq laboratoriyalarının yaradılması və akkreditasiya edilməsinin dəstəklənməsi | 2019-2023 | Qida Təhlükəsizliyi Agentliyi, İqtisadiyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi |
| 7.1.20. | Aqrar sektora dövlət dəstəyi çərçivəsində subsidiyaların, güzəştli kreditlərin verilməsi sisteminin təkmilləşdirilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi | 2019-2022 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi |
| 7.1.21. | Qeyri-kənd təsərrüfatı istehsal sahələrinin inkişafı üçün (turizm, xalçaçılıq və s.) güzəştli kreditlərin verilməsinin dəstəklənməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 7.1.22. | "ABAD" mərkəzləri şəbəkəsinin genişləndirilməsinin davam etdirilməsi və iri şirkətlər tərəfindən ailə təsərrüfatlarının dəstəklənməsinin təşviqi | 2019-2023 | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.23. | "ABAD" ailə təsərrüfatları üçün güzəştli kreditlərin verilməsinin dəstəklənməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 7.1.24. | Kənd təsərrüfatı məhsullarının sənaye üsulu ilə emalı üzrə müəssisələrin, həmçinin yun və gön-dəri emalı müəssisələrinin yaradılmasının təşviq edilməsi və dəstəklənməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.25. | Kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbarların, o cümlədən soyuducu anbarların tikintisinin dəstəklənməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 7.1.26. | Xalçaçılığın inkişafının dəstəklənməsi, o cümlədən xammal təminatının və xalça istehsalı sahələrinin yaradılması ilə bağlı tədbirlərin davam etdirilməsi | 2019-2023 | "Azərxalça" ASC, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.27. | Bölgələrdə süd toplama məntəqələrinin, göndəri xammalının tədarük məntəqələrinin, dərman bitkilərinin tədarükü və emalı müəssisəsinin yaradılmasının dəstəklənməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi |
| 7.1.28. | Sənaye parkları və sənaye məhəllələrinin yaradılması istiqamətində işlərin davam etdirilməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.29. | Regionlarda heyvan xəstəliklərinin qarşısının alınması üçün baytarlıq-sanitariya qurğularının tikintisi | 2019-2023 | Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.30. | Heyvanların qırxım məntəqələri və qaramalın çimizdirilmə qurğularının tikintisi | 2019-2023 | Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| **Gənclərin və qadınların regional inkişafda rolunun artırılması** | | | |
| 7.1.31. | Regionlarda fəaliyyət göstərən Gənclər Evlərində gənclər üçün karyeranın planlaşdırılması, peşə seçiminə dair istiqamətləndirilməsi və sahibkarlıq fəaliyyətinin əsaslarına dair təlim kurslarının keçirilməsi | 2019-2021 | Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi |
| 7.1.32. | Gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviq edilməsi məqsədilə layihələrin həyata keçirilməsi | 2019-2021 | Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, İqtisadiyyat Nazirliyi |
| 7.1.33. | Regionlarda yaşayan gənclərin İKT sahəsində biliklərinin artırılması məqsədilə təlimlərin keçirilməsi | 2019-2023 | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Gənclər və İdman Nazirliyi |
| 7.1.34. | Kənd və qeyri-kənd istehsal sahəsində innovativ təşəbbüslərə dəstək verilməsi məqsədilə startapların yaradılmasının təşviq edilməsi və dəstəklənməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi |
| 7.1.35. | Gənclərin regionlarda məşğulluğunun təmin edilməsi, o cümlədən cəbhə xəttinə yaxın ərazilərdə fəaliyyət göstərməsinin təşviqi və stimullaşdırılması, eləcə də onların kənd təsərrüfatının idarə olunması sahəsində bilik, bacarıq və vərdişlərinin inkişafı və gənclərin biznes inkubatorlarda iştirakının təşviqi məqsədilə tədbirlərin davam etdirilməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Gənclər Fondu, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası |
| 7.1.36. | Gənc sahibkarların və startapçıların inkişafı, onların bilik və bacarıqlarının formalaşdırılması məqsədilə tədbirlərin görülməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, yerli icra hakimiyyətləri |

| | | | |
|---|---|---|---|
| 7.1.37. | Qadınların məşğulluğunun artırılması, eləcə də onlar arasında kiçik sahibkarlığın inkişaf etdirilməsi, peşə hazırlığının gücləndirilməsi, maliyyə savadlılığının və informasiya texnologiyalarından istifadə bacarıqlarının artırılması istiqamətində tədbirlərin davam etdirilməsi | 2019-2023 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| 7.1.38. | Qadınların əl işlərindən və istehlak məhsullarından ibarət satış-sərgilərin keçirilməsinin dəstəklənməsi | 2019-2023 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İqtisadiyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| **Peşə təhsili və kadr hazırlığının inkişafı** | | | |
| 7.1.39. | Regionlarda peşə təhsili müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və tikintisi istiqamətində işlərin davam etdirilməsi<br>o cümlədən:<br>- Aqrar yönümlü Peşə təhsili məktəbinin tikintisi. | 2019-2023 | Təhsil Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.40. | Aqrar sahədə kadr hazırlığı aparan ali, orta ixtisas təhsili və peşə təhsili müəssisələrinin təlim-təcrübə işlərinin təşkili ilə bağlı tədbirlərin görülməsi | 2019-2021 | Təhsil Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.41. | Regionların sosial-iqtisadi inkişaf prioritetlərini nəzərə alaraq müasir tələblərə cavab verən işsiz və işaxtaran vətəndaşlar üçün Regional Peşə *Təhsil* Mərkəzləri şəbəkəsinin genişləndirilməsi, mövcud olanların maddi-texniki bazasının gücləndirilməsi, səriştə əsaslı modul və distant (məsafədən) təlim imkanlarının artırılması[4] | 2019-2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.42. | Kənd təsərrüfatı sahəsində ən çox tələb olunan peşə və ixtisaslar üzrə peşə standartlarının, onlar əsasında təlim (modul) proqramlarının hazırlanması və tətbiqi | 2019-2020 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, aidiyyəti dövlət orqanları |
| **Maliyyə xidmətlərinə çıxış imkanlarının yaxşılaşdırılması** | | | |
| 7.1.43. | Agent bankçılıq perspektivlərinin müəyyən edilməsi | 2019 | Maliyyə Bazarlarına Nəzarət Palatası |
| 7.1.44. | Mikromaliyyə institutlarının ödəniş sistemlərinə inteqrasiyasının təşviqi | 2019-2023 | Maliyyə Bazarlarına Nəzarət Palatası |
| 7.1.45. | Startapçıların və sahibkarların maliyyə resurslarına (kreditlərə, investisiyalara, qrantlara, biznesə dəstək kapitalına və s.) çıxış imkanlarının genişləndirilməsi sahəsində müvafiq tədbirlərin görülməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, Mərkəzi Bank, Azərbaycan Respublikasının Gənclər Fondu |
| 7.1.46. | Rəqəmsal maliyyə xidmətinin təklif edilməsinin stimullaşdırılması | 2019-2020 | Maliyyə Bazarlarına Nəzarət Palatası |
| 7.1.47. | Lizinq məhsullarının istifadəsi imkanlarının genişləndirilməsi | 2019 | Maliyyə Bazarlarına Nəzarət Palatası, Kənd Təsərrüfatı Nazirliyi |
| 7.1.48. | Əlçatan sığorta məhsullarının yaradılmasının təşviqi | 2019-2020 | Maliyyə Bazarlarına Nəzarət Palatası |
| **Turizmin inkişafı** | | | |
| 7.1.49. | Bakı şəhərinin qəsəbələri üzrə və rayonlarda turist cəlb edilməsi baxımından yüksək dəyərə malik olan prioritet turizm nümayiş obyektlərinin inkişaf etdirilməsi | 2019-2021 | Dövlət Turizm Agentliyi, yerli icra hakimiyyətləri, bələdiyyələr |
| 7.1.50. | Regionlarda müxtəlif turizm növlərinin, o cümlədən kənd yaşıl turizmi, etno-turizm, eko-turizm, qış turizmi, trans-sərhəd turizmi və s. inkişafı istiqamətində müvafiq tədbirlərin görülməsi | 2019-2023 | Dövlət Turizm Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri, bələdiyyələr |
| 7.1.51. | Kənd yaşıl turizmi fəaliyyəti ilə məşğul olan sahibkarlara kreditlərin və qrantların verilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi | 2019-2023 | Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 7.1.52. | Bir sıra ənənələrin təbliğatı (çörəkbişirmə, xalçaçılıq və s.) məqsədilə qısamüddətli kursların təşkili, eləcə də ixtisaslaşmış kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi üzrə tədbirlərin görülməsi | 2019-2023 | Dövlət Turizm Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, “Azərxalça” ASC |
| 7.1.53. | Turizm xidmətləri təklif edən nümunəvi fermer təsərrüfatı (şərabçılıq, arıçılıq, balıqçılıq və s.) modelinin yaradılması | 2019-2020 | Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi |
| 7.1.54. | Mövcud turizm marşrutlarının inkişaf etdirilməsi və yeni turizm marşrutlarının yaradılmasının təşviqi | 2019-2023 | Dövlət Turizm Agentliyi, yerli icra hakimiyyətləri |
| 7.1.55. | Regionlarda turizm xidmətlərinin təkmilləşdirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi | 2019-2023 | Dövlət Turizm Agentliyi, yerli icra hakimiyyətləri |
| 7.1.56. | Regionlarda həssas sosial qrupların turizm xidmətlərinə çıxışının təkmilləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi | 2019-2023 | Dövlət Turizm Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| 7.1.57. | Azərbaycan Respublikasının milli parklarında ekoturizm infrastrukturunun yaradılması, yerli əhalinin turizmin inkişafı tədbirlərinə cəlb edilməsi | 2019-2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Turizm Agentliyi, yerli icra hakimiyyətləri |
| **Sosial müdafiənin gücləndirilməsi** | | | |
| 7.1.58. | Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi və vətəndaş məmnunluğunun artırılması məqsədi ilə respublikanın rayon və şəhərlərində DOST mərkəzlərinin yaradılması | 2019-2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, aidiyyəti dövlət orqanları, yerli icra hakimiyyətləri |

| | | | |
|---|---|---|---|
| 7.1.59. | Regionlarda əmək bazarının mövcud vəziyyətinin öyrənilməsi, regionlar arasında əmək bazarının inkişafında mövcud fərqlərin, habelə regional əmək bazarında (xüsusilə kənd təsərrüfatı sahəsində) ən çox tələb olunan peşə və ixtisasların müəyyən olunması məqsədilə monitorinq və araşdırmaların aparılması, proqnozlaşdırma sisteminin yaradılması | 2019-2021 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi, aidiyyəti dövlət orqanları |
| 7.1.60. | Qeyri-neft sektorunda, xüsusilə kənd təsərrüfatı sahəsində yeni iş yerlərinin yaradılmasına üstünlük verməklə ərazi məşğulluq proqramlarının keyfiyyətinin artırılması, onların icrasına nəzarətin gücləndirilməsi | 2019-2020 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.61. | Kənd yerlərində sosial cəhətdən həssas əhali qruplarının, xüsusilə aztəminatlı ailələrin, qadınların, gənclərin və əlilliyi olan şəxslərin potensial imkanları nəzərə alınaraq cəmiyyətdə fəal iştirakının dəstəklənməsi, əmək bazarına inteqrasiya olunması məqsədilə aktiv məşğulluq tədbirlərinə cəlb edilməsi | 2019-2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, yerli icra hakimiyyətləri |
| 7.1.62. | Əlilliyi olan şəxslər, xüsusilə gənclər üçün sosial reabilitasiya işinin gücləndirilməsi məqsədilə regionlarda sağlamlıq imkanları məhdud gənclərin peşə reabilitasiya mərkəzləri şəbəkəsinin genişləndirilməsi | 2019-2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyətləri, Əmlak Məsələləri Dövlət Komitəsi |
| 7.1.63. | Qarabağ müharibəsi *ilə əlaqədar əlilliyi olan şəxslərin* və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması işlərinin davam etdirilməsi[5] | 2019-2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.64. | Valideyin himayəsindən məhrum olmuş kimsəsiz məzunların yaşayış şəraitinin yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | ~~Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik,~~ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi[6] |
| 7.1.65. | Regionlarda məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| 7.1.66. | Əhalinin sosial müdafiəsi müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| **Ekologiya və təbii sərvətlərdən istifadə** | | | |
| 7.1.67. | Hidrometeoroloji şəbəkənin təkmilləşdirilməsi | 2019-2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 7.1.68. | Respublikanın rayonlarında yüksək məhsuldarlıqlı meşə və meyvə cinslərindən ibarət əkin materiallarının yetişdirilməsi | 2019-2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 7.1.69. | Yeni aqromeşə massivlərinin və meşə əkinlərinin salınması<br>o cümlədən:<br>- Yeni Ələt-Astara magistral avtomobil yolunun Salyan-Biləsuvar hissəsində yolun mühafizə zolağından kənarda yeni aqrobağların (157 ha) salınması və damcılı suvarma sisteminin qurulması;<br>- Ələt-Astara magistral avtomobil yolunun Salyan rayonunun inzibati (Şirvan Milli Parkı) ərazisində yeni aqrobağların (45 ha) salınması və damcılı suvarma sisteminin qurulması;<br>- Bakı-Quba magistral avtomobil yolunun 34- 42 km (Abşeron rayonu) hissəsində yolun mühafizə zolağından kənarda yeni aqrobağların (35 ha) salınması və damcılı suvarma sisteminin qurulması. | 2019-2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.70. | Yeraltı şirin su yataqlarının axtarışı və axtarış-qiymətləndirmə işlərinin aparılması | 2019-2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 7.1.71. | Ətraf mühitin monitorinqi üzrə kompleks monitorinq laboratoriyalarının yaradılması və akkreditasiyasının dəstəklənməsi | 2019-2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi |
| 7.1.72. | İnşaat materiallarına geoloji axtarış və axtarış-qiymətləndirmə işlərinin aparılması | 2019-2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 7.1.73. | Sosial-iqtisadi inkişafla əlaqədar əhali arasında ekoloji maarifləndirmə işlərinin təşkili | 2019-2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyətləri, bələdiyyələr |
| 7.1.74. | Bərk məişət tullantılarının idarə olunması ilə bağlı işlərin davam etdirilməsi | 2019-2023 | İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.75. | Çirklənmiş torpaqların təmizlənməsi istiqamətində tədbirlərin davam etdirilməsi<br>o cümlədən:<br>- Suraxanı rayonunun ərazisində, keçmiş yod-brom zavodunun ətrafında (100 ha) çirklənmiş ərazinin bərpası, yaşıllıqların salınması və damcılı suvarma sisteminin qurulması | 2019-2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Neft Şirkəti |
| 7.1.76. | Abşeron yarımadasındakı göllərin ekoloji vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi<br>o cümlədən:<br>- Böyükşor gölünün reabilitasiyası. | 2019-2023 | ~~İqtisadiyyat Nazirliyi,~~ Ekologiya və Təbii Sərvətlər Nazirliyi, “Azərsu” ASC[7] |
| **Yol təsərrüfatı və nəqliyyatın inkişafı** | | | |

| | | | |
|---|---|---|---|
| 7.1.77. | Dəmir yolu infrastrukturunun yenidən qurulması işlərinin davam etdirilməsi<br>o cümlədən:<br>- Şərq-Qərb dəmir yolu xəttinin, elektrik təchizatı sisteminin, rabitə və işarəvermə sisteminin yenidənqurulması;<br>- Şimal-Cənub dəmir yolu xəttinin, elektrik təchizatı sisteminin, rabitə və işarəvermə sisteminin yenidən qurulması;<br>- Dəyişən cərəyanla işləyən lokomotivlər üçün Gəncədə və Biləcəridə depoların tikintisi. | 2019-2023 | "Azərbaycan Dəmir Yolları" QSC |
| 7.1.78. | Respublikanın turizm mərkəzlərinə yeni dəmir yolu xətlərinin çəkilişi işlərinin davam etdirilməsi<br>o cümlədən:<br>- Ləki-Qəbələ dəmir yolu xəttinin çəkilməsi. | 2019-2023 | "Azərbaycan Dəmir Yolları" QSC |
| 7.1.79. | Dəmir yolunun hərəkət tərkibinin yenilənməsi ilə bağlı işlərin davam etdirilməsi<br>o cümlədən:<br>- Dəyişən cərəyanla işləyən 50 ədəd lokomotivin alınması;<br>- 20 ədəd sərnişin vaqonunun, 14 ədəd elektrik qatarının alınması;<br>- 35 ədəd sərnişin vaqonunun və dizel qatarının əsaslı təmiri. | 2019-2023 | "Azərbaycan Dəmir Yolları" QSC |
| 7.1.80. | Respublika əhəmiyyətli avtomobil yollarının tikintisi və yenidən qurulması sahəsində işlərin davam etdirilməsi<br>o cümlədən:<br>- Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi;<br>- Bakı-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun (132,7 km - 192,24 km) 1 kateqoriyaya uyğun olaraq tikintisi;<br>- Samur (Azərbaycan Respublikası)<br>"Yaraq Qazmalar" (Rusiya Federasiyası) buraxılış məntəqələri ərazisində Samur çayı üzərindən avtomobil körpüsünün və onun giriş yollarının tikintisi;<br>- Gəncə-Qazax-Gürcüstan respublikası ilə avtomobil yolunun 4 zolağa genişləndirilməsi;<br>- Bəhrəmtəpə-Biləsuvar avtomobil yolunun yenidən qurulması;<br>- Ucar-Zərdab-Ağcabədi avtomobil yolunun tikintisi;<br>- Yevlax-Zaqatala-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun Yevlax-Şəki hissəsinin yenidənqurulması;<br>- Cəlilabad-Yardımlı avtomobil yolunun bərpası;<br>- Salyan-Şirvan avtomobil yolunun yenidən qurulması;<br>- Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması;<br>- Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi (81 km) - Biləsuvar avtomobil yolunun yenidən qurulması;<br>- Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun tikintisi. | 2019-2023 | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi |
| **Enerji təchizatının yaxşılaşdırılması** | | | |
| 7.1.81. | Ölkədə elektrik enerjisi hasilatının artırılması məqsədilə müvafiq işlərin həyata keçirilməsinin davam etdirilməsi, o cümlədən kiçik su elektrik stansiyalarının tikintisi | 2019-2023 | Energetika Nazirliyi, "Azərenerji" ASC |
| 7.1.82. | Yüksək gərginlikli ötürmə infrastrukturunun (elektrik verilişi xətləri və yarımstansiyalar) tikintisi və yenidən qurulması üzrə işlərin davam etdirilməsi | 2019-2023 | "Azərenerji" ASC |
| 7.1.83. | Regional Dispetçer Mərkəzlərində müasir dispetçer məntəqələrinin və SCADA idarəetmə sistemlərinin yaradılması | 2019-2023 | "Azərenerji" ASC |
| 7.1.84. | Bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının tikintisi sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | Energetika Nazirliyi |
| 7.1.85. | Kənd rayonlarında biokütlə üzrə enerji potensialının qiymətləndirilməsi, kənd təsərrüfatı tullantılarından bio yanacaqların və bioenerjinin istehsalı, alternativ və bərpa olunan enerji mənbələri hesabına aqrar sənaye müəssisələrinin enerji tələbatının ödənilməsi ilə bağlı pilot layihələrin həyata keçirilməsi | 2019-2021 | Energetika Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.86. | Suvarmada bərpa olunan enerji mənbələrindən istifadə olunması ilə bağlı pilot layihələrin hazırlanması və həyata keçirilməsi | 2019-2021 | Energetika Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, "Meliorasiya və Su Təsərrüfatı" ASC, yerli icra hakimiyyətləri |
| 7.1.87. | İstixanaların istilik təchizatında bio yanacaqların və günəş kollektorlarının tətbiqinin dəstəklənməsi | 2019-2021 | Energetika Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.88. | Aqro komplekslərin enerji təchizatında alternativ və bərpa olunan enerji mənbələrinin tətbiqi və orada yaranan tullantılardan istifadə olunmaqla bioeneıji istehsalının təşviqi | 2019-2021 | Energetika Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyətləri |

| | | | |
|---|---|---|---|
| 7.1.89. | Regionlarda istilik təchizatı sistemlərinin bərpası, yenidən qurulması və yaxşılaşdırılması ilə bağlı tədbirlərin davam etdirilməsi | 2019-2023 | “Azəristiliktəchizat” ASC, yerli icra hakimiyyətləri |
| **Suvarma suyu ilə təminatın yaxşılaşdırılması** | | | |
| 7.1.90. | “Şəmkir çayı üzərində dəryaçanın tikintisi” kompleks layihəsinə daxil olan obyektlərin tikintisinin davam etdirilməsi<br>o cümlədən:<br>- Şəmkir maşın kanalının suvermə qabiliyyətinin artırılması, 1 növbəsinin təmir-bərpası və II növbəsinin tikintisi;<br>- Şəmkirçay su anbarının zonasında yerləşən ərazilərə suvarma suyunun çatdırılması üçün təsərrüfatlararası paylayıcı kanalların tikintisi;<br>- Şəmkir maşın kanalının II növbəsinin zonasında yerləşən ərazilərə suvarma suyunun çatdırılması üçün təsərrüfatlararası paylayıcı kanalların tikintisi. | 2019-2023 | “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC, yerli icra hakimiyyətləri |
| 7.1.91. | Magistral və paylayıcı suvarma kanallarının tikintisi və yenidənqurulması sahəsində işlərin davam etdirilməsi<br>o cümlədən:<br>- Abşeron magistral kanalında yenidən qurma işlərinin aparılması və kanalın suburaxma qabiliyyətinin artırılması;<br>- Araz çayının yeni qolundan yeni suvarılacaq torpaq sahələrinə suyun verilməsi üçün paylayıcı kanalların tikintisi;<br>- Yuxarı Mil kanalının 11 mərhələ üzrə tikintisinin davam etdirilməsi. | 2019-2023 | “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC, yerli icra hakimiyyətləri |
| 7.1.92. | Regionlarda əkin sahələrinin su təminatının yaxşılaşdırılması və suvarılan sahələrin genişləndirilməsi məqsədilə yeni su anbarlarının tikintisi sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC, yerli icra hakimiyyətləri |
| 7.1.93. | Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədi ilə subartezian quyularının qazılmasının davam etdirilməsi | 2019-2023 | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, yerli icra hakimiyyətləri |
| 7.1.94. | Respublikanın rayonlarında suvarılan torpaqların genişləndirilməsi, qış otlaqlarının su təchizatı sistemlərinin bərpası və yenidən qurulması ilə bağlı işlərin davam etdirilməsi | 2019-2023 | “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyətləri |
| **Əhalinin təhlükəsizliyinin qorunması** | | | |
| 7.1.95. | Regionlarda yanğından mühafizə tədbirləri ilə bağlı infrastrukturun yaxşılaşdırılması işlərinin davam etdirilməsi | 2019-2023 | Fövqəladə Hallar Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.1.96. | Respublikanın mina və partlamamış hərbi sursatlarla, tərkibində partlayıcı olan qurğularla, müharibənin partlayıcı qalıqları ilə çirklənmiş ərazilərində Humanitar Minatəmizləmə fəaliyyətləri çərçivəsində təmizləmə və zərərsizləşdirmə sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | *Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi*[8] |
| **7.2. Bakı şəhəri və qəsəbələri üzrə həyata keçiriləcək tədbirlər** | | | |
| **Qeyri-neft sektorunun inkişafı** | | | |
| 7.2.1. | Sənayenin inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi<br>o cümlədən:<br>- Ayaqqabı tikiş zavodunun istehsal gücünün artırılması;<br>- Şüşə tara istehsalı zavodunun istehsal gücünün artırılması;<br>- Sürtkü yağlarının istehsalı müəssisəsinin yaradılması;<br>- Metal sənaye məhsulları istehsalı müəssisəsinin yaradılması;<br>- Gips zavodunun genişləndirilməsi;<br>- Elektron qurğuların layihələndirilməsi və istehsalı müəssisənin yaradılması;<br>- Alüminium kabellərin istehsalı zavodunun yaradılması;<br>- Alüminium profili istehsalı müəssisəsinin qurulması;<br>- Plastik profil istehsalı müəssisəsinin yaradılması;<br>- Şüşə emalı müəssisəsinin qurulması;<br>- Metal məmulatlarının istehsalı müəssisəsinin yaradılması;<br>- Kağız və karton istehsalı müəssisəsinin yaradılması;<br>- Müasir maşın və avadanlıq istehsalı zavodunun yaradılması;<br>- Corab istehsalı müəssisəsinin yaradılması;<br>- Rezin və plastmas məmulatları istehsalı müəssisəsinin yaradılması;<br>- Qənnadı fabrikinin yaradılması;<br>- İstilik və buxar qazanları istehsalı müəssisəsinin yaradılması. | 2019-2023 | Sahibkarlar, İqtisadiyyat Nazirliyi, “Azərbaycan Sənaye Korporasiyası” ASC, yerli icra hakimiyyətləri |
| 7.2.2. | Balaxanı Sənaye Parkının inkişaf etdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi<br>o cümlədən:<br>- Qida tullantılarından gübrə və yem istehsalı müəssisəsinin tikintisi;<br>- Ağac-taxta tullantılarının emalı, kömür (aktiv kömür) istehsalı müəssisəsinin tikintisi;<br>- Plastik tullantıların təkrar emalından plastik torların və digər plastik məhsulların istehsalı müəssisəsinin tikintisi;<br>- Qablaşdırma və etiket istehsalı müəssisəsinin tikintisi;<br>- Maqnezium Oksid Panellərin istehsalı müəssisəsinin tikintisi;<br>- Avadanlıq, dəzgah və texnikaların bərpası (regenerasiyası) xidməti müəssisəsinin tikintisi;<br>- Tullantı avtomobil şinlərinin və rezin məmulatı emalından rezin qırıntılarının istehsalı müəssisəsinin tikintisi;<br>- Taxta qırıntısından pellet və taxta unu istehsalı müəssisəsinin tikintisi. | 2019-2023 | Sahibkarlar, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.2.3. | Pirallahı Sənaye Parkının inkişaf etdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi<br>o cümlədən:<br>- Müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı zavodunun tikintisi;<br>- Dərman preparatlarının və vasitələrinin istehsalı və qablaşdırılması zavodlarının tikintisi;<br>- Uşaq bezlərinin istehsalı müəssisəsinin tikintisi. | 2019-2023 | Sahibkarlar, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyətləri |

| | | | |
|---|---|---|---|
| 7.2.4. | Kənd təsərrüfatı məhsulları istehsalı və emalı sahəsinin inkişafı<br>o cümlədən:<br>- Müasir istixana komplekslərinin yaradılması;<br>- Balıqçılıq təsərrüfatının yaradılması;<br>- Xəzər rayonunun Zirə qəsəbəsində intensiv bağçılıq təsərrüfatının yaradılması;<br>- 9 ha müasir istixana kompleksinin yenidənqurulması;<br>- Müasir logistik mərkəzin tikintisi. | 2019-2023 | Sahibkarlar, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti |
| **Yol təsərrüfatı və nəqliyyatın inkişafı** | | | |
| 7.2.5. | Avtomobil yollarının, eləcə də qəsəbələrararası və qəsəbədaxili avtomobil yollarının tikintisinin və yenidən qurulmasının davam etdirilməsi<br>o cümlədən:<br>- Xocasən-Lökbatan avtomobil yolunun 0-11 km hissəsinin təmiri;<br>- Qala-Pirallahı yolu-Gürgən qəsəbəsi avtomobil yolunun yenidən qurulması;<br>- Qala-Pirallahı yolu-Qoşa Qışlaq yaşayış massivi avtomobil yolunun yenidən qurulması;<br>- Hövsan qəsəbəsi ilə Zeytun sovxozunu birləşdirən avtomobil yolunun yenidən qurulması;<br>- Bakı-Şamaxı-Yevlax avtomobil yolu (12 km) -Xocasən qəsəbəsi avtomobil yolunun yenidən qurulması;<br>- Mərdəkan şossesi-Badam Bağlan yaşayış massivi avtomobil yolunun yenidən qurulması;<br>- Binə qəsəbəsinin "Südçülük sovxozu" yaşayış massivinin daxili yollarının yenidən qurulması;<br>- Binə qəsəbəsi - "Binə aqrokompleksi" yeni yaşayış massivi avtomobil yolunun yenidən qurulması;<br>- Zabrat-Maştağa yolu-"Savalan" yaşayış massivi avtomobil yolunun yenidən qurulması;<br>- Sabunçu rayonu Bakıxanov qəsəbəsi ilə Suraxanı rayonu Qaraçuxur və Yeni Suraxanı qəsəbələrini birləşdirən avtomobil yolunun yenidən qurulması;<br>- Məhəmməd Hadi küçəsinin "Həzi Aslanov" metro stansiyasından Zığ şosesinədək olan hissəsinin tikintisi;<br>- Şəfayət Mehdiyev küçəsinin Landau küçəsindən Ə.Haqverdiyev küçəsinədək olan hissəsinin yenidən qurulması;<br>- Aşıq Molla Cümə küçəsinin Həsən Əliyev küçəsindən Ziya Bünyadov prospektinədək hissəsinin yendən qurulması;<br>- Həsən Əliyev küçəsinin Aşıq Molla Cümə küçəsindən Yusifbəy Çəmənzəminli küçəsindək hissəsinin yenidən qurulması;<br>- Aşıq Molla cümə küçəsi ilə Əhməd Rəcəbli küçəsini birləşdirən ara yolların yenidən qurulması;<br>- Gülbala Əliyev küçəsinin əsaslı təmiri. | 2019-2023 | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi, Bakı Şəhər İcra Hakimiyyəti, yerli icra hakimiyyətləri, bələdiyyələr |
| 7.2.6. | Bakı şəhərətrafı dəmiryolu xəttinin tikintisi<br>o cümlədən:<br>- 98 km uzunluğunda mövcud dəmir yolu xəttinin təmiri;<br>- 13,5 km uzunluğunda yeni dəmir yolu xəttinin tikintisi;<br>- Dəmir yolu boyunca 8 stansiya və 6 dayanacağın tikintisi;<br>- Dəmir yolu boyunca 14 avtomobil yol keçidinin (8 yeraltı, 6 yerüstü) tikintisi;<br>- Dəmir yolu boyunca 22 piyada keçidinin tikintisi. | 2019-2023 | "Azərbaycan Dəmir Yolları" QSC |
| **Kommunal xidmətlərin yaxşılaşdırılması** | | | |

| | | | |
|---|---|---|---|
| 7.2.7. | Elektrik enerjisi təminatının yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi<br>o cümlədən:<br>- 110/35/6 kV-luq "Dübəndi" yarımstansiyasının əsaslı təmiri;<br>- 110/35/10 kV-luq 2x50 MVA gücündə "Buzovna" və "AzDRAMA" yarımstansiyalarının tikintisi<br>- 110/35/6 kV-luq 2x40 MVA gücündə yeni "Pirallahı" yarımstansiyanın tikintisi<br>- 1 ədəd 2x630 kVA gücündə 10-6 kV-luq transformator məntəqəsinin yenidənqurulması;<br>-6 ədəd (1 girişli) 10-6 kV-luq kompleks transformator məntəqəsinin tikintisi;<br>- 9,2 km uzunluğunda 35 kV-luq kabel xətlərinin tikintisi;<br>- 21,6 km uzunluğunda 35 kV-luq hava xətlərinin təmiri;<br>- 9 km uzunluğunda 10-6 kV-luq kabel xətlərinin tikintisi;<br>- 5,9 km uzunluğunda 10-6 kV-luq hava xətlərinin təmiri;<br>- 19 km uzunluğunda 0,4 kV-luq ÖİN xətlərinin təmiri;<br>- 0,8 km uzunluğunda 0,4 kV-luq ÖİN xətlərinin tikintisi;<br>- 8,8 km uzunluğunda 0,4 kV-luq kabel xətlərinin tikintisi;<br>- 3,1 km uzunluğunda "Buzovna-1" -''Buzovna-2" yarımstansiyalar arası 110 kV-luq iki-dövrəli kabel xəttinin tikintisi;<br>- 3,1 km uzunluğunda "Yasamal-1" - "AzDRAMA" yarımstansiyalararası 110 kV-luq ikidövrəli kabel xəttinin tikintisi;<br>- 3,9 km uzunluğunda "Dübəndi"-"Pirallahı" yarımstansiyalararası 110 kV-luq ikidövrəli kabel xəttinin tikintisi. | 2019-2023 | "Azərenerji" ASC, "Azərişıq" ASC |
| 7.2.8. | İstilik təchizatının yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | "Azəristiliktəchizat" ASC |
| 7.2.9. | Qaz təchizatının yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | Dövlət Neft Şirkəti |
| 7.2.10. | İçməli su təchizatının və kanalizasiya sistemlərinin yaxşılaşdırılması sahəsində işlərin davam<br>etdirilməsi<br>o cümlədən:<br>- "Ağ Şəhər" layihəsi çərçivəsində su və kanalizasiya sistemlərinin yaradılması;<br>- "20-ci sahə" və ətraf ərazilərin su təchizatı və kanalizaisya sistemlərinin yenidən qurulması;<br>- Pirşağı çirkab sutəmizləyici qurğularının tikintisinin davam etdirilməsi;<br>- Dəməgül-Bakıxanov-Qaraçuxur kanalizasiya kollektorunun tikintisinin davam etdirilməsi;<br>- Lökbatan-Xocasən kanalizasiya tunelinin tikintisinin davam etdirilməsi;<br>- Qəsəbələrin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasının davam etdirilməsi. | 2019-2023 | "Azərsu" ASC |
| **Rabitə xidmətlərinin yaxşılaşdırılması** | | | |
| 7.2.11. | Telekommunikasiya və poçt xidmətlərinin yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi |
| **Meliorasiya və irriqasiya tədbirləri** | | | |
| 7.2.12. | Əkin sahələrinin su təminatının yaxşılaşdırılması tədbirlərinin davam etdirilməsi<br>o cümlədən:<br>- Xəzər və Pirallahı rayonlarının zeytun və badam bağlan salınacaq ərazilərində torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi. | 2019-2023 | "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı'' ASC, yerli icra hakimiyyətləri |
| **Mənzil təsərrüfatı və abadlıq-quruculuq işləri** | | | |
| 7.2.13. | Mənzil şəraitinin yaxşılaşdırılması və abadlıq-quruculuq işlərinin davam etdirilməsi<br>o cümlədən:<br>- Çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi | 2019-2023 | yerli icra hakimiyyətləri, bələdiyyələr |
| **Sosial müdafiənin gücləndirilməsi** | | | |
| 7.2.14. | Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən işsiz, xüsusilə əmək qabiliyyətli ünvanlı sosial yardım alan, habelə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin özünüməşğulluq proqramına cəlb olunması işinin davam etdirilməsi | 2019-2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| 7.2.15. | Şağan Müharibə Əlilləri üçün Müalicə Pansionatının əsaslı təmiri. | 2019-2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| **Sosial infrastrukturun yaxşılaşdırılması** | | | |
| 7.2.16. [9] | *Tibb* müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində işlərin davam etdirilməsi<br>o cümlədən:<br>- Professor Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm Xəstəlikləri Sanatoriyasının tikintisi;<br>- Maştağa qəsəbəsində 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının ərazisində yeni korpusun tikintisi;<br>- Nizami rayonunda 11 nömrəli Birləşmiş Şəhər Xəstəxananın sökülərək yenidən qurulması və onun ərazisində Təcili Tibbi Yardım Stansiyasının tikintisi. | 2019-2023 | Səhiyyə Nazirliyi, *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi,* yerli icra hakimiyyətləri |
| 7.2.17. | Mədəniyyət obyektlərinin əsaslı təmiri və tikintisi, tarix-mədəniyyət abidələrinin bərpası və konservasiyası sahəsində işlərin davam etdirilməsi<br>o cümlədən:<br>- Binəqədi rayonu, İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasının bərpası və yenidən qurulması;<br>- Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasının yüksək texnologiyalar əsasında təkmilləşdirilməsi, təmir-bərpa işlərinin aparılması və avadanlıqlarla təchizatı. | 2019-2023 | Mədəniyyət Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyətləri |
| 7.2.18. | İdman-sağlamlıq müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyətləri |
| 7.2.19. | | 2019-2023 | Təhsil Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, yerli icra hakimiyyəti |

Təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində işlərin davam etdirilməsi
o cümlədən:
- Yasamal Yaşayış Kompleksində 960 şagird yerlik tam orta məktəbin tikintisi;
- Binə qəsəbəsində 1600 şagird yerlik tam orta məktəbin tikintisi;
- Bakı Avropa Liseyi üçün yeni binanın tikintisi;
- Kimya-biologiya təmayüllü Respublika Liseyinin yataqxana korpusunun əsaslı təmiri;
- Şüvəlan qəsəbəsində Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli xüsusi internat məktəbinin yataqxanasının əsaslı təmiri;
- 14 nömrəli Bakı Peşə Liseyinin bazasında Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzinin yaradılması;
- 16 nömrəli Bakı Peşə Liseyinin bazasında Dəniz Nəqliyyatı, Gəmiqayırma və Liman İşləri üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzinin yaradılması;
- 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi üçün yeni idman zalının tikintisi;
- T.İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının bərpa-gücləndirilməsi;
- 15 nömrəli Olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbinin yenidən qurulması;
- 25 nömrəli Uşaq Yaradıcılıq Mərkəzinin əsaslı təmiri;
- Novxanı "Bağlar" massivində Laçın rayonu 21 nömrəli 264 şagird yerlik tam orta məktəbinin tikintisi;
- Səbail rayonu Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin əsaslı təmiri;
- Nərimanov rayonu 39 nömrəli məktəbin əsaslı təmiri;
- Nərimanov rayonu 291 nömrəli məktəbin əsas korpusunun əsaslı təmiri;
